# Lerikdə şəhid zabitin doğum günü rayon səviyyəsində qeyd olunmuşdur





Lerikdəki Heydər Əliyev Mərkəzində Azərbaycan Ordusunun zabiti - Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı, Vətən müharibəsinin 40-cı günündə Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Əliqismət Yaqublunun anadan olmasının 29-cu ildönümü qeyd edilmişdir. Tədbirdə rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri və gənclər iştirak etmişlər.

Öncə torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş, sonra şəhid Əliqismət Yaqublunun ömür yoluna həsr edilən guşəyə və videoçarxa baxış keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lerik nümayəndəliyinin rəhbəri Ayfər Şakirli qeyd etdi ki, Əliqismət Yaqublu 1992-ci il aprelin 18-də rayonun Kələxan kəndində anadan olmuş, 2007-ci ildə Lerik şəhər M.Bağışov adına 3 saylı tam orta məktəbin 9-cu sinfini bitirmiş və elə həmin il Cəmşid Naxçıvanski adına Bakı Hərbi Kollecinə daxil olmuşdur. 2010-2014-cü illərdə Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbində təhsil alan Ə.Yaqublu daha 1 il Təlim Tədris Mərkəzində hərbi biliklərə yiyələnmişdir. O, 2016-cı ilin Aprel döyüşlərində şücaət və qəhrəmanlıq göstərmişdir. 2018-ci ildən isə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrində baş leytenant kimi xidmət rəisi vəzifəsini daşımışdır.

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılan baş leytenant Murovdağın, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının düşmədən azad edilməsində qəhrəmanlıq göstərmişdir. Noyabrın 5-də Şuşa şəhəri uğrunda gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır.

Prezidentin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilən şəhid zabitin özündən sonra 2 azyaşlı övladı - Əliəsgər və Məhəmməd yadigar qalmışdır.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı R.Bağırov bildirdi ki, Azərbaycan özünün Əliqismət kimi oğulları sayəsində Zəfər tarixini yazmışdır: "44 günlük Vətən müharibəsində yüzlərlə lerikli gənc könüllü olaraq erməni caynağında olan torpaqlarımızın azadlığı uğrunda savaşa atıldı. Əzəli və əbədi torpaqlarımız uğrunda şəhidlər verdik, yaralı qazilərimiz doğma el-obaya qalib ordunun döyüşçüləri kimi qürur hissilə qayıtdılar. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və iradəsi, böyük sərkərdəlik qabiliyyəti sayəsində müzəffər ordumuz 30 illik Qarabağ həsrətinə son qoydu".

Sonra şəhid Əliqismət Yaqublunun sinif müəllimi Firuzə Adıyeva, Arif Nuriyev adına şəhər 1 saylı texniki təmayüllü liseyin direktoru Gültəkin Şıxəliyeva, Malik Bağışov adına şəhər 3 saylı tam orta məktəbin direktoru Validə Mədətova, Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov, mərkəzin əməkdaşı Bahar Mürsəliyeva çıxış edərək qəhrəman eloğlumuz haqqında xatirələrini bölüşdülər.

Şəhidin atası, rayonumuzun dəyərli ziyalısı Mükafat Yaqubov oğlu haqqında xatirə və düşüncələrini dilə gətirdi. O, qəhrəman övladına verilən yüksək qiymətə görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirdi.

Tədbirin sonunda şagirdlər Fatimə Babayevanın və Aysel Nəzərovanın ifalarında Əliqismət Yaqubluya həsr edilmiş şeirlər səsləndirdilər.

***Hüsaməddin ABBASOV, Lerik***